**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XIX ƏSR AZƏRBAYCAN ƏDƏBİYYATINDA DİNİ MÖVZULU ƏSƏRLƏRİN İDEYA-BƏDİİ XÜSUSİYYƏTLƏRİ

| | |
|---|---|
| İxtisas: | 5716.01 – Azərbaycan ədəbiyyatı |
| Elm sahəsi: | Filologiya |
| İddiaçı: | **Taleh Əvəz oğlu Hüseynov** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI-2025**

Dissertasiya işi Bakı Avrasiya Universitetinin "Ümumi Filologiya" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Filologiya elmləri doktoru, professor
**Tərlan Aslan oğlu Quliyev**

Rəsmi opponentlər: Filologiya elmləri doktoru, professor
**Elman Hilal oğlu Quliyev**

Filologiya elmləri doktoru, dosent
**Şahbaz Şamı oğlu Musayev**

Filologiya elmləri doktoru, dosent
**Əlizadə Bayram oğlu Əsgərli**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Folklor İnstitutu komissiyasının nəzdində fəaliyyət göstərən ED 1.27 - Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: ____________ Filologiya elmləri doktoru, professor
**Seyfəddin Gülverdi oğlu Rzayev**

Dissertasiya şurasının elmi katibi: ____________ Filologiya üzrə fəlsəfə doktoru
**Nizami Şamil oğlu Adışirinov**

Elmi seminarın sədri: ____________ Filologiya elmləri doktoru, dosent
**Səbinə Namus qızı Əhmədova**

# GIRIŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan ədəbiyyatının ən maraqlı dönəmlərindən biri də XIX əsrdir. Belə ki, bu əsr, Azərbaycanın məcburən də olsa, yavaş-yavaş Şərqdən ayrılıb, Avropaya üz tutduğu bir dövrdür. Buna görə də XIX əsr olduqca mürəkkəb, müharibələrlə və ictimai-siyasi-ədəbi-dini hadisələrlə zəngin olan bir dövrdür. Doğrudur, bu "zənginlik" xalqın həyatında bəzən ağır izlər buraxsa da, lakin ədəbiyyata, elmə də təsirsiz ötüşməmişdir. Bu dövrdə Azərbaycan ictimai-siyasi fikri, elmi-ədəbi məfkurəsi bir tərəfdən Avropa dəyərlərinə sahiblənirdisə, digər tərəfdən Şərq estetikası da Azərbaycan mühitindən yan ötmür, öz varlığını və mövcudiyyətini qorumağa çalışırdı. Bu mənada, bir tərəfdən dövrün oxumuş adamları, məfkurələrində artıq Avropa istiqaməti götürmüş ziyalıları yalançı din xadimlərini "şarlatan və fırıldaqçı" adlandırırdılarsa, digər tərəfdən cəmiyyətin başqa bir qism ziyalıları poeziyada 1400 il əvvəl öz əqidələri uğrunda şəhid olmuş insanları, din xadimlərini, əhli-beyt üzvlərini təbliğ edirdi. Belə bir təbliğat əslində yeni məfkurəyə, yeni əqidəyə, yeni dünyagörüşə qarşı, müəyyən mənada müqavimət hərəkatı idi.

Lakin, təbii ki, tarixin hökmünü dəyişmək mümkün deyildir. Ədəbiyyatda, bədii-estetik fikirdə baş verən bu müqavimət hərəkatı nə qədər güclü olsa da, əslində yeni məfkurənin, yeni dünyagörüşün qabağını almaqda aciz idi. Bu mənada, bütün bu məsələləri öyrənmək, haqqında olduqca müxtəlif əsərlər yazılan XIX əsr Azərbaycan ictimai-siyasi mühitinə, Azərbaycan ədəbiyyatına, XIX əsrdə bu ədəbiyyatda meydana çıxan istiqamətlərə və xüsusilə, dini təmayüllərə yeni nəzərlərlə baxmaq olduqca zəruridir.

Din cəmiyyətə təsir edən ən mühüm ictimai şüur formalarından biridir. Bu baxımdan, XIX əsr Azərbaycan mühiti də istisna deyildir. XIX əsrdə yeni Avropa mühitinin, çar rus dövlətinin işğalçılıq siyasətinin təsiri, cəmiyyətdə dini əhval-ruhiyyəni bir qədər də dirçəltmişdi. Təbii ki, cəmiyyətdə gedən bu proseslər ədəbiyyata da təsir edir, Abdulla bəy Asi, Mirzə Ələsgər Növrəs, Ahi, Mirzə Həbib Qüdsi, Pürqəm, Dəxil, Dilsuz, Sərraf, Qumri, Ləli, Raci, Müqbil, Mirfəttah, Məhzun, Ağabağır, Cövhəri, Xaki, Sərbaz kimi onlarla

şairlər bəzən tamamilə dini mövzularda əsərlər qələmə alırdılar. Onların dini mövzularda qələmə aldıqları əsərlərdə, məqtəl ədəbiyyatında dini ideyalar təbliğ olunur, islam tarixinin ən şərəfli anları, qəhrəmanlıq səhifələri təsvir edilir, Kərbəla faciəsi öz əksini tapırdı. Bu mövzular adları çəkilən şairlər tərəfindən böyük ilhamla tərənnüm olunur, adətən insanların hisslərinə daha çox təsir edirdi. Təbii ki, bu da həmin poeziyanın zərifliyindən, incəliyindən, yüksək poetik xüsusiyyətlərindən irəli gəlirdi.

Lakin XIX əsr Azərbaycan ədəbiyyatının gözəlliyi ondan ibarət idi ki, məsələn, əgər Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani kimi müqtədir şairlər, yazıçılar, islam dininin xüsusiyyətlərini incəliklərinə qədər bilən şəxsiyyətlər bir tərədən mətbuatla, teatrla əməkdaşlıq edir, maarifi, mədəniyyəti, elmi təbliğ edirdilərsə, digər tərəfdən bəzən hansı mövqedən yanaşmalarına baxmayaraq, dini mövzularda da əsərlər qələmə alır, dini mövzularda da əsərlər yazırdılar. Bu mənada, XIX əsrdə yaşayıb-yaratmış Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani və s. onlarla böyük mütəfəkkirmizin həyat və yaradıcılıqlarını, onların yaradıcılıqlarının məzmun və mahiyyətlərini öyrəndiyimiz kimi, bu əsrdə fəaliyyət göstərən, dini mövzularda əsərlər yazan digər şairlərin də həyat və yaradıcılıqlarını öyrənməli, onların da əsərlərinin ideya-məzmun xüsusiyyətlərini üzə çıxarmalıyıq. Çünki onların da yaradıcılıqları XIX əsr Azərbaycan ədəbiyyatında müəyyən bir üslub və istiqaməti təmsil edir ki, bu üslub və istiqaməti də öyrənmədən XIX əsr Azərbaycan ədəbiyyatı haqqındakı fikirlərimiz tam və elmi olmaz.

Bizim tədqiq etdiyimiz mövzu indiyə qədər bilavasitə bizim qoyduğumuz şəkildə tədqiq olunmasa da, hər halda bizim mövzuya ən yaxın şəkildə hələ ötən əsrin əvvəllərindən etibarən böyük ədəbiyyatşünas Firidun bəy Köçərli tərəfindən öyrənilməyə başlanılmış, başqa sözlə desək, hələ Firidun bəy Köçərli XIX əsr şairlərinin yaradıcılıqlarında rüşeym şəklində də olsa, dini mövzuları araşdırmış, XIX əsr şairlərindən dini mövzulara, məqtəl mövzusuna daha çox meyl edən şairləri müəyyən etməyə çalışmış, onların yaradıcılıqlarını müxtəlif yönlərdən saf-çürük etmişdir. Təbii ki, Firidun bəy Köçərli öz tədqiqatını qələmə alarkən qarşısına bilavasitə

XIX əsrdə ancaq dini mövzuda yazan şairlərin həyat və yaradıcılıqlarını, onların əsərlərinin ideya-məzmun və poetik xüsusiyyətlərini öyrənməyi bir məqsəd kimi qoymasa da, amma XIX əsrdə bu mövzuda yazıb-yaradan şairlərin üzərindən də sükutla keçməmiş, onların əsərlərinin yuxarıda qeyd olunan xüsusiyyətləri barəsində bəzən qısa, bəzən isə kifayət qədər ətraflı danışaraq, onlar barəsində əsaslı şəkildə məlumat vermişdir. Bu mənada, biz Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı" əsəri vasitəsi ilə XIX əsr Azərbaycan ədəbiyyatında daha çox dini mövzuda, məqtəl mövzusunda yazıb-yaradan Abdulla bəy Asi, Mirzə Ələsgər Növrəs, Ahi, Mirzə Həbib Qüdsi, Pürqəm, Dəxil, Dilsuz, Sərraf, Qumri, Ləli, Raci, Müqbil, Mirfəttah, Məhzun, Ağabağır, Cövhəri, Xaki, Sərbaz kimi şairlərin həyat və yaradıcılıqları haqqında məlumat alır, onların əsərlərinin ilkin təhlili ilə yanaşı, əsərlərinin ideya, məzmun, poetik xüsusiyyətləri ilə tanış oluruq[1]. Maraqlıdır ki, Firidun bəy Köçərli öz əsərini qələmə alarkən qarşısına qoyduğu məqsədə uyğun olaraq, bəzən yuxarıda adları çəkilən şairlərin bəziləri haqqında - onların yaradıcılıqlarının özünəməxsusluqları barədə, məsələn, məqtəl mövzusunun həmin şairlərin yaradıcılığına nə üçün daha çox xas olduğu barədə, elə gözəl şərhlər, informasiyalar, məlumatlar verir ki, bu məlumatlar həmin şairlərin yaradıcılığının mahiyyətini öyrənməkdə əvəzsiz mənbəyə çevrilir.

Tədqiqatçıların ümümi rəyinə görə, Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı" əsəri Azərbaycan ədəbiyyatşünaslığında təqribən müasir elmi metodologiya prinsipləri ilə qələmə alınmış ilk ədəbiyyat tarixi hesab olunur. Lakin bu əsər, eyni zamanda, təzkirə ədəbiyyatı ilə müasir ədəbiyyat tarixləri arasında keçid rolu oynayır ki, bu mənada, bu əsərdə təzkirə ədəbiyyatının xüsusiyyətləri də özünü açıq-aydın göstərir. Təzkirə ədəbiyyatına gəldikdə isə onu demək olar ki, istər Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı" əsərindən əvvəl qələmə alınmış Seyid Əzim Şirvaninin "Təzkirə"si və Mir Möhsün Nəvvabın qələminə məxsus "Təzkireyi-Nəvvab"

[1] Köçərli, F.Azərbaycan ədəbiyyatı / [İki cilddə] /F.Köçərli.-Tərt.ed. R.Qəmbərqızı.- Bakı: Elm.- c.1.-1978; Köçərli, F. Azərbaycan ədəbiyyatı // [İki cilddə]/ F.Köçərli.- Tərt. ed. R.Qəmbərqızı. –Bakı: Elm.- c.2.- 1981.

əsərlərində və istərsə də "Azərbaycan ədəbiyyatı"ndan sonra çap olunmuş Məhəmmədəli Tərbiyətin "Daneşməndane-Azərbaycan" əsərində də biz çox sayda XIX əsr məqtəl mövzusunda yazıb-yaradan şairlərin həyat və yaradıcılıqları ilə tanış oluruq ki, bu da hələ XIX əsrin sonları, XX əsrin əvvəllərində bu şairlərin yaradıcılıqlarına olan marağı göstərməklə bərabər, eyni zamanda, adları çəkilən bu əsərlərin bu mövzuda qiymətli mənbələr olduqlarını da ortaya qoymuş olur [2].

Lakin bu əsərlər, yəni istər Seyid Əzim Şirvaninin, Mir Möhsün Nəvvabın, Məhəmmədəli Tərbiyətin və istərsə də Firidun bəy Köçərlinin əsərləri bu mövzuda nə qədər qiymətli mənbələr olsalar da, təbii ki, ilk mənbələr deyildirlər. XIX əsr Azərbaycan ədəbiyyatında dini mövzuda yazıb-yaradan şairlərin yaradıcılıqlarını öyrənmək üçün ilk mənbələr yəqin ki, ilk növbədə Qumrinin, Racinin, Dəxilin, Dilsuzun, Sərrafın və başqalarının XIX əsrin sonları XX əsrin əvvəllərində və XXI əsrdə Təbrizdə çap olunmuş divanları hesab olunur. Bu mənada, belə əsərlərdən Acizin hicri tarixi ilə 1273-cü ildə Təbrizdə çap olunmuş "Divani-Aciz", Qumrinin hicri tarixi ilə 1300-cü (miladi 1882-ci) ildə Təbrizdə çap olunmuş "Divan"ını, hicri 1300-cü ildə yenə də Təbrizdə çap olunmuş "Kənzül-məsaib" əsərini [3], Mirzə Kərim Şüainin hicri 1298-ci, miladi tarixlə 1880-ci ildə Təbrizdə çap olunmuş "Divanı"nı[4] , Racinin 1340 hicri tarixlə Təbriz çap olunmuş "Divani-Raci Təbrizi" əsərini, hicri 1320, miladi tarixlə 1902-ci ildə yenə də Təbrizdə çap olunmuş "Divanı"nı, 1377 və 1389-cu illərdə Təbrizdə tərtibçi Əbülfəzl Əhmədlu tərəfindən çap olunmuş "Divani-Raci Təbrizi"[5] və "Raci Təbrizinin nöhələri və mərsiyələri" kitablarını, Hacı Rza Sərrafın miladi 1992, hicri 1331-ci ildə Təbrizdə çap olunmuş "Divani-Sərraf"[6] və Professor Hüseyn

---

[2] Nəvvab, M.M. Təzkireyi-Nəvvab / ÖM.M.Nəvvab. Çap. hazır. Ə.Bağırov.- Bakı: Azərbaycan nəşriyyatı.- 1998; .Şirvani, S. Ə.. Əsərləri. [3 cilddə] // S.Ə.Şirvani.- Bakı: Elm.- 1974.- c.3; Tərbiyət M.Daneşməndane- Azərbaycan// M.Tərbiyət.- Bakı: Maarif.-1987.

[3] Qumri. Kənzül-məsaib// Qumri.- Təbriz: 1300 (h).

[4] Köçərli, F. Azərbaycan ədəbiyyatı // [İki cilddə]/ F.Köçərli.- Tərt. ed. R.Qəmbərqızı. –Bakı: Elm.- c.2.- 1981.

[5] Divani-Raci Təbrizi / Tərt. Ed. Ə. Əhmədli - Təbriz:- 1377 (h).

[6] Divani-Sərraf //- Təbriz:- 1992.- 1331 (h).

Düzgünün 2010-cu ildə Təbrizdə çap etdirdiyi "Divani-şaire türki Rza Sərraf Təbrizi" əsərini və başqalarını misal göstərmək olar [7].

XIX əsr ədəbiyyatı, eləcə də poeziyası ilə dərindən məşğul olanların sırasında ilk növbədə akademik Feyzulla Qasımzadənin adını çəkmək lazımdır. Ümumiyyətlə, Azərbaycan ədəbiyyatı tarixində müasir elmi-metodoloji əsaslarla XIX əsr Azərbaycan ədəbiyyatı tarixi kursunu ilk dəfə akademik Feyzulla Qasımzadə yaratmış və bununla da Azərbaycan ədəbiyyatşünaslığına əvəzsiz xidmət göstərmişdir. Onun çoxsaylı tədqiqatları sırasında təkcə elə "XIX əsr Azərbaycan ədəbiyyatı" kitabının adını çəkmək kifayətdir [8]. Akademik Feyzulla Qasımzadədən sonra XIX əsr Azərbaycan ədəbiyyatı, bu əsrin poeziyası ilə məşğul olan alimlərdən onlarla başqalarının adlarını çəkmək olar ki, bu alimlər də qeyd etdiyimiz kimi XIX əsr Azərbaycan ədəbiyyatının öyrənilməsində böyük rol oynamışlar

Lakin XIX əsr ədəbiyyatında dini mövzunun tədqiq olunması təbii ki, müstəqilliyimizin verdiyi imkanlar çərçivəsində ancaq keçən əsrin 90-cı illərindən sonra geniş vüsət almışdır. Belə ki, bu dövrdən sonra XIX əsrdə yazıb-yaradan, daha çox dini mövzuda, məqtəl mövzusunda əsərlər yazan Raci və başqa şairlərin əsər-lərinin ayrıca çap olunması ilə yanaşı, bu haqda tədqiqatlar da meydana çıxmağa başlamışdır. Bu mənada, hələ 1990-cı ildə Mail Əliyev və Arif Ramazanov tərəfindən "Dahilərin göz yaşı" mərsiyələr kitabının[9], 1993-cü ildə Teymur Kərimli və İslam Qəribli tərəfindən "Necə qan ağlamasın daş bu gün" mərsiyələr, sinəzənlər, qəsidələr kitabının[10], Hafiz Abıyev tərəfindən 1992-ci ildə çap olunmuş Hacı Əbülhəsən Racinin "Seçilmiş əsərləri"ni[11], yenə də Hafiz Abıyev tərəfindən, amma bu dəfə 2005-ci

---

[7] Divani- şaire türki. Rza Sərraf Təbrizi / Tərt.ed. H. Düzgün.- Təbriz:- 2010

[8] Qasımzadə, F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi // F.Qasımzadə.- Bakı: Maarif.- 1974.

[9] Dahilərin göz yaşı. Mərsiyələr / Tərt. ed. M.Əliyev, A.Ramazanov – Bakı: Elm,- 1990.- 112 s.

[10] Necə qan ağlamasın daş bu gün. Mərsiyələr, sinəzənlər, qəsidələr/ Tərt.ed. İ.Qəribli, T. Kərimli.- Bakı: Yazıçı.- 1993.

[11] Raci, H.Ə. Seçilmiş əsərləri// H.Ə.Raci/ Tərt. ed. H. Abiyev.- Bakı: Sabah.- 1992.

ildə çap olunmuş Hacı Rza Sərrafın "Divan"ını, qəzəllər, mərsiyələr, kitablarını[12] və başqalarını misal göstərmək olar. Qeyd edək ki, Sərrafın və Racinin əsərlərini çapa hazırlayan Hafiz Abıyev bu şairlərin yaradıcılıqları haqqında müxtəlif məqalələr yazmaqla yanaşı, həmçinin bu əsələrə ön söz yazaraq, ön sözdə bütövlükdə bu şairlərin yaradıcılıqlarını təhlil etmiş, eyni zamanda, onların nohələri, sinəzənləri, mərsiyələri haqqında da söhbət açmışdır[13].

Maraqlıdır ki, istər Firidun bəy Köçərli, istərsə də sonrakı tədqiqatçılar XIX əsr mərsiyə ədəbiyyatından danışarkən Dəxil, Raci, Qumri kimi onlarla şairin adlarını çəkirlər. Lakin, qeyd etmək lazımdır ki, müasir tədqiqatçılar bu şairlərdən daha çox Racinin yaradıcılığına müraciət etmiş və onu tədqiq etmişlər. Belə ki, Hafiz Abıyev Racidən danışarkən yazır: "Hacı Əbülhəsən Raci Azərbaycanın ən az tədqiq olunan şairlərindəndir. Lakin buna baxmayaraq, onu xalqımız daha yaxşı tanıyır. Mərsiyənəvis kimi geniş şöhrət qazanmış şairimizin klassik poeziyanın müxtəlif janrlarında kifayət qədər yazıb-yaratması isə çox məhdud dairədə məlumdur"[14]. Bu mənada, hətta, Raci belə ən az tədqiq olunan şairlərimizdəndirsə, digər XIX əsr mərsiyə şairlərimizin yaradı-cılıqları demək olar ki, heç öyrənilməmişdir. Raciyə gəldikdə isə onu qeyd etmək lazımdır ki, bu mənada, hələ Raci heç olmasa bəxti gətirən şairlərimizdəndir. Belə ki, son illərdə Racinin yaradıcılığına maraq daha da artmış, Hafiz Abıyevlə bərabər, Sədrəddin Hüseyn adlı tədqiqatçı da Raci yaradıcılığına müraciət edərək "Azərbaycan mərsiyə ədəbiyyatı və Əbülhəsən Racinin poetik dünyası" adlı monoqrafiya qələmə

---

[12] Sərraf, Hacı Rza. Divan. Qəzəllər - mərsiyələr// H.R.Sərraf.- Tərt.ed. H. Abıyev.- Bakı: Beynəlxalq "Əl -Hüda" nəşriyyatının Bakı şöbəsi.- 2005.

[13]Abıyev, H. Sözün sərrafı / H.Abiyev, Sözün sərrafı, Ədəbi-nəzəri məcmuə, III kitab.- Bakı: Nafta-Pres,- 2005; Abıyev, H. Ön söz / H.Abıyev, Hacı Əbülhəsən Raci, Seçilmiş əsərləri,- Bakı: Sabah,- 1992; Söz sərrafı// Hacı Rza Sərraf Təbrizinin vəfatının 100 illiyi münasibətilə Təbriz və Bakı şəhərlərində keçirilmiş elmi konfransların materialları.- Bakı: Beynəlxalq "Əl-Hüda" nəşriyyatının Bakı şöbəsi.- 2005.

[14] Abıyev, H. Ön söz / H.Abıyev, Hacı Əbülhəsən Raci, Seçilmiş əsərləri,- Bakı: Sabah,- 1992.

almışdır [15]. Sədrəddin Bayram oğlu Hüseyn öz monoqrafiyasında Racinin həyatı, mühiti, dünyagörüşü, lirikası, lirikasında məhəbbət, ictimai-dini-fəlsəfi mövzulu şeirlərin tədqiqinə geniş yer ayırmış, eyni zamanda, Raci poeziyasının sənətkarlıq xüsusiyyətini araşdırmışdır. Qeyd etmək lazımdır ki, müəllif təkcə bu monoqrafiya ilə kifayətlənməmiş, eyni zamanda, Raci yaradıcılığına bir sıra silsilə məqalələr də həsr etmişdir [16].

Raci və Sərraf kimi şairlərin yaradıcılıqları digər alimlərimiz tərəfindən də araşdırılmış, Nazim Rizvan və Özbək Nadirov kimi tədqiqatçılar da bu şairlərin yaradıcılıqları haqqında gözəl əsərlər qələmə almışlar [17].

**Tədqiqatın obyekti və predmetini** XIX əsrdə yaşayıb-yaratmış Abdulla bəy Asi, Mirzə Ələsgər Növrəs, Ahi, Mirzə Həbib Qüdsi, Pürqəm, Dəxil, Dilsuz, Sərraf, Qumri, Ləli, Raci, Müqbil, Mirfəttah, Məhzun, Ağabağır, Cövhəri, Xaki, Sərbaz kimi şairlərin həyat və yaradıcılıqlarının öyrənilməsi, onların əsərlərinin ideya-məzmun xüsusiyyətlərinin üzə çıxarılması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Təbii ki, tədqiqatın məqsədi ilk növbədə XIX əsr Azərbaycan ədəbiyyatını bir daha və daha dərindən öyrənməkdir. Doğrudur, Azərbaycan ədəbiyyatı tarixinin

---

[15] Sədrəddin, H. Azərbaycan mərsiyə ədəiyyatı və Əbülhəsən Racinin poetik dünyası// H.Sədrəddin.- Bakı: Ekoprint.- 2016

[16] Sədrəddin, H. Ə.Racinin dünyagörüşünə bir nəzər// H.Sədrəddin.- Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyi, ADPU. Filologiya məsələlərinə dair tematik toplu.- 2002, №3-4.- s.11-23; Sədrəddin, H. Əbülhəsən Raci əsərlərinin nəşri və tədqiq tarixindən//H.Sədrəddin.- Bakı: Elmi Axtarışlar, VII toplu.- Nurlan.- 2002.- s.165-168; Sədrəddin, H. Azərbaycan ədəbiyyatında mərsiyə mövzusu və Əbülhəsən Racinin mərsiyələri// H.Sədrəddin.- Ağrı: Kafkas Universitetlər birligi. Uluslararası Ağrı sosial bilimlər konqresi.- İ.Çeçen Universiteti, 25-27. 09.-2013.- s.405-410; Sədrəddin, H. Klassiklərin tədqiqi və Əbülhəsən Raci/ Bakı: Filologiya məsələləri, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu.- Elm və təhsil.- 2014, №2; Sədrəddin, H. Hacı Əbülhəsən Racinin yeni üzə çıxan mərsiyələri/ H.Sədrəddin.- Bakı: Filologiya məsələləri, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu.- Elm və təhsil.- 2014, №4

[17] Nazim, R. Raci lirikasının bəzi xüsusiyyətləri/ Bakı: Azərb SSRİ EA-nın Xəbərləri, Ədəbiyyat, Dil və İncəsənət seriyası.- 1990, №2; .Nadirov, Ö. Hacı Rza Sərrafın yaradıcılıq yolu// Ö.Nadirov.- Bakı: Elm.- 2005.-150 s.

mərhələləri içərisində ən çox tədqiq olunan dövrlərdən birinin bəlkə də XIX əsr ədəbiyyatı olduğunu soyləmək mümkün olsa da, amma bu dövrün özünün də öyrənilməsində "ağ ləkələrin" mövcud olduğunu inkar etmək olmaz. Belə ki, adları yuxarıda çəkilən Abdulla bəy Asi, Mirzə Ələsgər Növrəs, Ahi, Mirzə Həbib Qüdsi, Pürqəm, Dəxil, Dilsuz, Sərraf, Qumri, Ləli, Raci, Müqbil, Mirfəttah, Məhzun, Ağabağır, Cövhəri, Xaki, Sərbaz kimi şairlərin yaradıcılıqları son onilliklərə qədər demək olar ki, öyrənilməmiş və yaxud da çox az öyrənilmişdir. Bu mənada, bu şairlərin yaradıcılıqlarını öyrənmək, onların əsərlərinin mahiyyətini meydana çıxarmaq olduqca vacibdir. Cünki bu şairlərin yaradıcılığının mahiyyətini bilmədən XIX əsr Azərbaycan ədəbiyyatı haqqında tam və hərtərəfli fikir yürütmək olmaz. Belə ki, bu şairlərin yaradıcılıqları XIX əsr Azərbaycan ədəbi prosesinin tərkib hissəsi olduğundan, başqa sözlə desək, onların yaradıcılıqları XIX əsr Azərbaycan ədəbiyyatında ayrıca bir üslub və istiqaməti təşkil etdiyindən, onların yaradıcılıqlarına sadəcə olaraq göz yummaq mümkün deyil, yalnız onların da yaradıcılıqlarını öyrəndikdən sonra XIX əsr Azərbaycan ədəbiyyatı haqqında tam fikir yürümək mümkündür.

Bəri başdan qeyd edək ki, bu şairlərin yaradıcılıqları XIX əsr Azərbaycan ədəbiyyatı tarixində özünəməxsusluqları ilə seçilir. Doğrudur, XIX əsrdə əksər şair və yazıçılar dini mövzularda əsərlər qələmə almışlar. Lakin digər şairlərə nisbətən bu şairlər daha çox dini mövzulara müraciət etmiş, onların qələmə aldıqları mövzular digər şairlərin qələmə aldıqları dini mövzulardan da fərqlənmişdir. Belə ki, bu şairlər öz yaradıcılıqlarında daha çox məqtəl mövzusuna toxunmuş və daha çox minacat və nət yazmışlar.

Beləliklə, dissertasiyanın qarşısında duran əsas məqsəd həmin şairlərin yaradıcılıqlarının mövzu-məzmun-ideya-sənətkarlıq xüsusiyyətlərinin nədən ibarət olduqlarını ayrıd etmək, onların əsərlərinin dini mövzularda yazan digər müasirlərinin əsərlərindən hansı xüsusiyyətlərinə görə seçildiklərini göstərməkdən ibarətdir.

**Tədqiqatın metodları.** Tədqiqatın metodoloji və nəzəri əsaslarını dünya və Azərbaycan ədəbiyyatşünaslığının bütövlükdə ədəbiyyata və xüsusilə də şərq ədəbiyyatrına həsr etdikləri elmi-nəzəri əsərlər, metod və prinsiplər təşkil edir. Eyni zamanda, tədqiqat

zamanı müxtəlif dini ədəbiyyatdan istifadə etmək də nəzərdə tutulur ki, onlar da bütövlükdə tədqiqatın nəzəri əsaslarını möhkəmləndirmiş olacaqdır.

Dissertasiyada **müdafiəyə çıxarılan əsas müddəalar** aşağıdakılardır:

1. Yuxarıda adları çəkilən şairlərin yaradıcılıqlarını araşdırmaqla XIX əsr Azərbaycan ədəbiyyatının mənzərəsini daha da dərinləşdirmək və dolğunlaşdırmaq.

2. XIX əsr Azərbaycan ictimai-siyasi həyatında və ədəbiyyatında baş verən hadisələri, prosesləri, istiqamətləri izləyərək bu dövr ədəbiyyatına tam yanaşıb bütöv qiymət vermək.

3. XIX əsr Azərbaycan ədəbiyyatında dini mövzunun hələ də aparıcı mövzu olduğunu qəbul etmək və bu mövzunun özünün də bir neçə istiqamətdə inkişaf etdiyini etiraf etmək.

4. XIX əsr Azərbaycan ədəbiyyatında mövcud olan dini mövzunun istiqamətlərini və bu istiqamətlərin xarakterini, mahiyyətlərini, bir-birləri ilə oxşar və fərqli cəhətlərini öyrənmək.

5. XIX əsr Azərbaycan ədəbiyyatında demək olar ki, yenidən və böyük vüsətlə meydana çıxan məqtəl ədəbiyyatının müydanaçıxma səbəblərini, onun mahiyyətini və məqsədini araşdırmaq.

6. XIX əsr Azərbaycan məqtəl ədəbiyyatının mövzu, məzmun, ideya xüsusuyyətlərini öyrənmək.

7. XIX əsr Azərbaycan məqtəl ədəbiyyatının ən görkəmli nümayəndələrini müəyyən etmək və onların yaradıcılıqlarını araşdırmaq.

8. XIX əsr Azərbaycan məqtəl ədəbiyyatının tarixi hadisələrə sadiqliyinin dərəcəsini müəyyən etmək.

9. XIX əsr Azərbaycan məqtəl ədəbiyyatının poetikasını araşdırmaq.

10. Məqtəl ədəbiyyatı qəhrəmanlarının XIX əsr Azərbaycan ədəbiyyatınıda poetik fiqura çevrilməsinin strukturunu öyrənmək.

Təbii ki, bütün bunlarla bərabər, XIX əsr Azərbaycan məqtəl ədəbiyyatı nümayəndələrinin yaradıcılıqlarına tam halında, küll halında, yəni onların bütövlükdə yaradıcılıqlarına, dünyəvi eşq mövzularında yazdıqları digər gözəl əsərlərə də ötəri də olsa nəzər

salmaq da nəzərdə tutulur ki, bu da dissertasiyanın qarşısında duran vəzifələrdən biridir. Çünki belə bir baxış olmadan bu şairlərin yaradıcılıqları oxucuda bu şairlər haqqında birtərəfli təəssürat yaratmış olar ki, təbii ki, bu da yolverilməzdir.

**Tədqiqatın elmi yeniliyi.** Beləliklə, məlum olur ki, qeyd olunan mövzu Azərbaycan ədəbiyyatşünaslığında olduqca az şəkildə tədqiqata cəlb olunmuş və XIX əsr Azərbaycan ədəbiyyatı tədqiqatçıları bu mövzuya əsasən ötəri nəzər salmışlar. Bu mənada, XIX əsr Azərbaycan ədəbiyyatında mövcud olan dini mövzuya dərindən və yeni rakursdan nəzər salmaq bütövlükdə tədqiqatın elmi yeniliyini şərtləndirir. Bu mövzu, eyni zamanda, Azərbaycan ədəbiyyat tarixini öyrənmək nöqteyi-nəzərindən də olduqca yenidir. Belə ki, bu mövzunun araşdırılması ədəbiyyat tariximizdə fəaliyyət göstərən, lakin ömür və yaradıcılıq yolları layiqincə öyrənilməyən neçə-neçə şairimizin həyat və yaradıcılıqlarını tədqiqat müstəvisinə çıxarmış olur. Bundan əlavə, tədqiqat zamanı Azərbaycan ədəbiyyatında işlənən məqtəl ədəbiyyatının da xüsusiyyətlərinə daha dərindən nəzər salınır ki, bizcə, bu da Azərbaycan ədəbiyyatı tarixinin müəyyən bir istiqamətinə tamamilə yeni münasibətdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın təcrübi əhəmiyyəti kimi Azərbaycan ədəbiyyatı tarixində fəaliyyət göstərmiş ayrı-ayrı şairlərin həyat və yaradıcılıqlarını araşdırılması vasitəsilə klassik ədəbiyyatımızın daha dərindən öyrənilməsi nəzərdə tutulur. Tədqiqatın nəzəri əhəmiyyətini isə Azərbaycan ədəbiyyatında işlənmiş məqtəl janrının araşdırılmasından alınan nəticələrin ədəbiyyat tariximizə təqdim olunması prosesi təşkil edir.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqat işi Bakı Avrasiya Universiteti filologiya fakültəsinin "Ümumi filologiya" kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın nəticələri Azərbaycan Respublikası və xarici ölkələrdə nəşr olunan dərgi və məcmuələrdə işıq üzü görmüşdür.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**.

Dissertasiya Bakı Avrasiya Universiteti, Azərbaycan və Dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir (Qeyd: Universitetin K2110-001/38 №-li əmrinə əsasən 10.07.2023-cü il tarixdən bu kafedra "Azərbaycan və Dünya ədəbiyyatı" kafedrası adlanmışdır).

Dissertasiyanın mövzusu Bakı Avrasiya Universitetinin rektoru 21.04.2017-ci il tarixli E028-01/51 saylı əmrinə əsasən “5716.01-Azərbaycan ədəbiyyatı” ixtisası üzrə dissertasiya işi və Humanitar Elmlər üzrə Problem şuranın qərarı: 19.10.2017, Protokol №: 8 qərarı ilə təsdiq edilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Giriş 12 səhifə, (21734 işarə), I fəsil 16 səhifə, (30727 işarə), II fəsil 77 səhifə,(117654 işarə) III fəsil 27 səhifə, (37839), Nəticə 4 səhifə, (6855 işarə), istifadə olunmuş ədəbiyyat siyahısı 13 səhifə. Ümumi həcmi 150 səhifə – 214809 işarə.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın “Giriş” hissəsinin “Mövzunun aktuallığı və işlənmə dərəcəsi”, “Tədqiqatın obyekti və predmeti”, “Tədqiqatın məqsəd və vəzifələri”, “Tədqiqatın metodları”, “Müdafiəyə çıxarılan əsas müddəalar”, “Tədqiqatın elmi yeniliyi”, “Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti”, “Tədqiqatın aprobasiyası”, “Tədqiqatın quruluşu” bölümləri təşkil edir.

Dissertasiyanın **I fəsli “XIX əsr Azərbaycan ədəbiyyatında ictimai-siyasi, elmi-ədəbi-dini mühit”** adlanır və iki yarımfəsildən ibarətdir. **“XIX əsr Azərbaycanda ictimai-siyasi, elmi-ədəbi mühit”** adlanan birinci yarımfəsildə göstərilir ki, XVIII əsrin birinci yarısından etibarən Çar Rusiyasının Azərbaycana marağı artmağa başladı. XVIII əsrdə Çar Rusiyasının Azərbaycana olan səfərləri arabir xarakter daşıyırdısa, XIX əsrin əvvəllərindən artıq bu səfərlər davamlı olaraq planlı şəkildə işğalçılıq siyasətinə çevrildi. Beləliklə, artıq XIX əsrin ilk illərindən etibarən Azərbaycanda yeni bir ictimai-siyasi mühit formalaşır, Azərbaycan ənənəvi, min illər boyu birgə yaşadığı, canına və qanına hopmuş Şərq ruhundan, Şərq dövlətçiliyi ənənələrindən, Şərq mənəviyyatından ayrılaraq, yeni bir dünyagörüşlü cəmiyyətin, dövlətin, mənəviyyatının tərkibinə qatılırdı. Bu fakt isə özünü istər-istəməz, təbii ki, həyatın bütün sahələrində olduğu kimi, elm, təhsil, mədəniyyət, mənəviyyat, din, dövlət quruculuğu və s. sahələrində də göstərirdi. Təbii ki, ilk illərdə xalq kütlələri təbəəliyinə yeni qatıldıqları bu dövlətin üsul-idarəsini, qayda-qanunlarını, mənəvi aləmini qəbul edə bilmir, bununla

barışmırdı. Digər sahələrdə olduğu kimi, mənəvi-mədəni sahədə də bu işğalı qəbul etmirdi. Ən azından poeziya, şeir vasitəsilə öz etirazlarını bildirməyə çalışır, klassik şeir ənənələrini davam etdirməklə, öz yaradıcılıqlarında dini mövzulara bəzən daha çox yer verməklə hələ də Şərqə, öz köklərinə bağlı olduqlarını sübut etmək istəyirdilər. Buna görə də əgər belə demək və izah etmək mümkünsə, bu zamandan etibarən Azərbaycanın ayrı-ayrı bölgələrində müxtəlif şeir, ədəbiyyat məclisləri yaranır, bu məclislərdə klassik Şərq ədəbiyyatının ənənələri davam etdirilirdi. Doğrudur, bu məclislərə toplanan şairlər bəzən Avropa, rus ədəbiyyatıyla əlaqəyə, təmasa can atsalar da, əslində bu məclislərə toplanan şairlərin böyük əksəriyyəti klassik şeir ənənələrini davam etdirməklə, bir növ Şərq ruhundan, Şərq mənəviyyatından ayrılmadıqlarını sübut etməyə çalışır, Şərq ədəbiyyatının onların yaradıcılığında hələ də aparıcı xətt olduqlarını vurğulamaq istəyirdilər. Məsələn, belə ədəbi məclislərdən Gəncədə Mirzə Şəfi Vazehin rəhbərliyi ilə yaranan "Divani-hikmət", Qubada Abasqulu Ağa Bakıxanovun rəhbərliyi ilə yaranan "Gülüstan", Ordubadda Fəqir Ordubadinin rəhbərliyi ilə yaranan "Əncümənüşşüəra", Lənkəranda Mirzə İsmayıl Qasir tərəfindən yaranan "Fövcülfüsəha", Şamaxıda Seyid Əzim Şirvani tərəfindən yaradılan "Beytüssəfa", Şuşada Xurşuibdanu Natavan tərəfindən yaradılan "Məclisi-üns", yenə də Şuşada Mir Möhsün Nəvvab tərəfindən yaradılan "Məclisi-fəramuşan", Bakıda Məhəmmədağa Cürmi tərəfindən yaradılan "Məcməüş-şüəra" və başqa ədəbi məclislərin adlarını çəkmək olar[18]. Lakin maraqlıdır ki, hələ təqribən XIX əsrin 20-ci illərindən etibarən Mirzə Şəfi Vazehin rəhbərliyi ilə yaranan, həm Gəncədə və həm də Tiflisdə fəaliyyət göstərən "Divani-hikmət" ədəbi məclisində F.Bodenştedt, Q. Rozen, İ.A.Slivitski və b. kimi Avropa mənşəli ziyalılar da iştirak edirdilər.[19]

XIX əsrdə Azərbaycan ədəbiyyatı və mədəniyyətində Avropa estetikasına söykənən nəsr, publisistika, ədəbi-bədii tənqid, dramaturgiya və onun komediya və faciə növləri kimi yeni ədəbi növ

[18] Qarayev, N. XIX əsr Azərbaycan ədəbi məclisləri// N.Qarayev.- Bakı: Nurlan.- 2010; Poetik məclislər// Top.tərt. ed. N. Qarayev.- Bakı: Yazıçı.- 1987.
[19] Mustafayev, R. Mirzə Şəfi və M.L.Mixaylov/ Bakı.- Elm və həyat jurnalı.- 1981, №7.

və janrlar meydana çıxsalar da, lakin hələ bu əsrdə də poeziya ədəbiyyatda aparıcı xətt olaraq qalırdı. Bu mənada, tədqiqatçılar XIX əsr Azərbaycan poeziyasından danışarkən onun əsasən bir neçə ədəbi üsluba bölündüyünü söyləyirlər: klassik üslubda yaranan poeziya, şifahi xalq üslubunda meydana çıxan poeziya və satirik şeir. Doğrudur, XIX əsrdə Azərbaycan poeziyasında özünü göstərən bu üslublar, yəni istər şifahi xalq ədəbiyyatı üslubunda, folklor üslubunda yaranan poeziya nümunələri və istərsə də satirik şeir nə qədər inkişaf edib, XIX əsr poeziyasında müəyyən mövqe qazanmağa nail olsalar da, təbii ki, bütövlükdə XIX əsr Azərbaycan ədəbiyyatını, poeziyasını ilk növbədə klassik üslubda yaranan poeziya, klassik şeir təmsil edirdi. Belə ki, bu dövrdə klassik üslubda yaranan poeziyanı təbii ki, başqa şairlərlə bərabər, ilk növbədə Seyid Əbülqasim Nəbati, Xurşudbanu Natavan və sözsüz ki, Seyid Əzim Şirvani təmsil edirdi. Bu şairlər öz yaradıcılıqlarında klassik şeir ənənəsinə tam sadiq qalmaqla bərabər, eyni zamanda, həmin ənənələri XIX əsrdə də davam etdirir, klassik şeirin irfani ideyalarını, irfani mahiyyətini, məzmununu XIX əsr şeirində də əks etdirməyə çalışırdılar. Qeyd edək ki, XIX əsr poeziyasında meydana çıxan bütün bu üslublarla yanaşı tədqiqatçıların bu dövr poeziyasında bir o qədər də qətiyyətlə etiraf etmədikləri, XIX əsr poeziyasında ayrıca bir üslub kimi görmədikləri və onu əsasən klassik üslubda yaranan poeziyanın kölgəsində təqdim etdikləri bir üslub da vardır: bu da daha çox məqtəl janrında, məqtəl mövzusunda meydana çıxan və ədəbiyyat nəzəriyyəsi kitablarında daha çox mərsiyə ədəbiyyatı, mərsiyə janrı kimi tanınan məqtəl ədəbiyyatıdır.

**I fəslin** ikinci yarımfəsli “ **XIX əsr Azərbaycanda din və cəmiyyət”** adlanır. Bu yarımfəsildə göstərilir ki, XIX əsrdə Azərbaycanda dini-mənəvi mühıtdən danışarkən demək lazımdır ki, bu dövrdə bu sahədə Azərbaycanda vəziyyət o qədər də sadə deyildi. Rus, Avropa mənəvi mühitinin təsiri artıq cəmiyyətdə özünü birbaşa şəkildə göstərirdi. Belə ki, hələ əsrin birinci yarısında Fridrix Bodnşted kimi missionerlər, avropalılar, dekabristlər Azərbaycana gəlir, bunun nəticəsində Mirzə Şəfi Vazeh, gənc Mirzə Fətəli Axundova onun din xadimi olmaq istədiyini bildikdən sonra, ona “Səndəmi fırıldaqçı və şarlatan olmaq istiyirsən?” sualını verir, əsrin

ortalarında “Mən bütün dinləri puç və əfsanə hesab edirəm” deyən Mirzə Fətəli Axundov “Kəmalüddövlə məktubları”nı yazır və nəhayət, sonralar dünya şöhrətli alim olacaq Dərbənd axundunun oğlu Mirzə Kazım bəy xristianlığı qəbul edir... Lakin XIX əsrdə islam dini Azərbaycanın ictimai-siyasi, mədəni-mənəvi həyatında hələ də böyük nüfuz sahibi idi və çar hökuməti də bu faktla istər-istəməz razılaşmalı olurdu. Nəhayət, ölkədə islam dininin nüfuzunu görən və dərk edən çar hökuməti hətta dini proseslərə müəyyən bir istiqamət vermək, onu idarə etmək üçün Azərbaycanda, Zaqafqaziyada şeyxülislamlıq institutunun yaranmasına da razılıq verdi. “ “Türkmənçay” müqaviləsindən sonra Azərbaycanın şimal hissəsini öz təsir dairəsinə alan Çar Rusiyası Qafqazda dini məsələləri nəzərdə saxlamaq və şiə təriqətinə başçılıq etmək üçün 1823-cü ildə şeyxülislam vəzifəsini təsis etdi. Lakin çox keçmədi ki, çarizm 1832-ci ildə sünnü təriqətinə dini rəhbərlikdən ötrü müfti vəzifəsini də təsis etdi”[20].

Beləliklə, gördüyümüz kimi, islam dini hələ cəmiyyətdə öz böyük nüfuzunu qoruyub saxlayır, həyatın bütün sahələrinə, mənəvi aləmin bütün dərinliklərinə nüfuz edirdi. Təbii ki, dövrün ədəbi prosesi də bu təsirdən kənarda deyildi. Bir qədər yuxarıda biz məqtəl ədəbiyyatından danışarkən, onun XIX əsr Azərbaycan ədəbiyyatında daha çox poeziya ilə bağlı olduğunu vurğulamışdıq. Amma əslində bu mövzu bütövlükdə Şərq, o cümlədən, Azərbaycan və eyni zamanda, XIX əsr ədəbiyyatımızda da poeziya ilə yanaşı nəsr əsərlərində də meydana çıxmışdır ki, bu baxımdan təkcə elə XVI əsrdə Füzulinin bu mövzuda yazdığı “Hədiqətüs-süəda” və XIX əsrdə Abbasqulu Ağa Bakıxanovun qələmə aldığı “Riyazül-qüds” əsərlərinin adlarını çəkmək kifayətdir. Ümumiyyətlə, məqtəl ədəbiyyatının tarixi və mövzusu olduqca qədimlərə dayanır. Məlum olduğu kimi, Kərbəla müsibəti, İmam Hüseynin şəhidlik zirvəsi haqqında yazılan əsərlərə məqtəl deyilir. Eyni zamanda, bu mövzulu əsərlər hələ bu hadisədən bir qədər sonra ilk dəfə ərəb ədəbiyyatında meydana çıxmağa başlamış, sonralar isə farsdilli və türkdilli

---

[20] Qafarov,Ə. Şeyxülislam Allahşükür Paşazadə: Zamana sığmayan ömür// Ə.Qafarov.- Bakı: Nurlar 2018- s.136

xalqların ədəbiyyatlarında da özünə yer almışdır. Təbii ki, türkdilli ədiblər də sonralar bu mövzuya müraciət etmiş, bu mövzuda olduqca qiymətli əsərlər yazmışlar.

XIX əsrdə Azərbaycan poeziyasında məqtəl ədəbiyyatından, mərsiyə ədəbiyyatından danışarkən ilk növbədə Mirzə Məhəmməd Tağı Qumri, Molla Hüseyn Dəxil Marağayi, Əbülhəsən Raci yada düşür. Təbii ki, XIX əsrin şairlərindən Məhəmməd Əmin Dilsuz Təbrizi və Hacı Rza Sərraf Təbrizinin yaradıcılıqlarında da Kərbəla faciəsinin təsviri əsas yer tutur. Qeyd edək ki, bu şairlər haqqında hələ Firidun bəy Köçərli məlumat vermiş, onların gözəl şairlər olduqlarını xatırlamaqla bərabər, Kərbəla müsibəti barədə də qiymətli əsərlər yazdıqlarını söyləmişdir. Bu şairlərin yaradıcılığı XIX əsr Azərbaycan ədəbiyyatında dini ədəbiyyatın, dini mövzuların yaranması, yayılması, tərənnüm olunması ilə birbaşa bağlıdır ki, XIX əsr Azərbaycan ədəbiyyatında dini motivlərdən danışarkən bu şairlərin yaradıcılıqlarının üzərindən sükutla keçmək və yaxud da onları nəzərə almamaq olmaz. Həqiqətən də, artıq XIX əsrin ortalarında mərsiyə, nohə, sinəzən yazan şairlərin sayı bəlkə də dünyəvi şeir yazan şairlərin sayından qat-qat artıq idi. Belə ki, bu proises şimallı-cənublu bütün Azərbaycanı əhatə edir, Dərbənddən Təbrizədək əksər şairlər bu mövzuda öz qələmlərini sınayırdılar. Təsadüfi deyil ki, böyük ədəbiyyatşünas və tənqidçi Firidun bəy Köçərli təkcə elə bir Şuşa şəhərinin ədəbi simasının təsvirində bu mövzuda yazan şairlərə aşağıdakı qiyməti verirdi: *“On beş-iyirmi sənə bundan əqdəm Şuşa qələdə əli qələm tutan kəmsavad uşaqlar dəxi növhə yazmağa məşğul olub, hər birisi öz düzdüyü şeirə oxşayan kəlamları ilə iftixar edirdilər”*[21]. Beləliklə, XIX əsr Azərbaycan ədəbiyyatında dini motivlərin işlənmə mövqeyinə baxdıqda burada əsasən iki istiqamətin olduğunu görürük. Bunlardan biri Seyid Əzim Şirvani, Əbülqasim Nəbati, Seyid Həmzə Nigari yaradıcılıqlarında meydana çıxan, əsasən ilahi eşqin tərənnümünə xidmət edən dini motivlər və bir də ikinci istiqamət: Mirzə Məhəmməd Tağı Qumri, Molla Hüseyn Dəxil Marağayi, Əbülhəsən Raci, Məhəmməd Əmin

---

[21] Köçərli, F. Azərbaycan ədəbiyyatı // [İki cilddə] F.Köçərli.- Tərt. ed. R.Qəmbərqızı. –Bakı: Elm.- c.2.- 1981.- s.326

Dilsuz Təbrizi, Hacı Rza Sərraf Təbrizinin və başqalarının yaradıcılıqlarında meydana çıxan məqtəl ədəbiyyatının xüsusiyyətləri. Lakin təbii ki, bu bölgünün özü də şərti bölgüdür. Bu bölgülər arasında kəskin sədd qoymaq, bizcə o qədər də doğru olmazdı. Çünki biz məqtəl ədəbiyyatı nümayəndələrinin yaradıcılıqlarında ilahi eşqin tərənnümü, irfanla bağlı fikirlər gördüyümüz kimi, eyni zamanda irfani fikirlərin tərənnümünü yaradıcılıqlarında əsas tutuan şairlərin əsərlərində də məqtəl ədəbiyyatının xüsusiyyətləri ilə də qarşılaşırıq.

Dissertasiyanın **II fəsli "XIX əsr Azərbaycan ədəbiyyatında dini mövzular"** adlanır və iki yarımfəsildən ibarətdir. "**XIX əsr Azərbaycan ədəbiyyatında dini poeziyanın nümayəndələri**" adlanan birinci yarımfəsildə göstərilir ki, XIX əsrdə dini ədəbiyyatın görkəmli nümayəndəsi olan Qumri yaradıcılığını təhlil edərkən Firidun bəy Köçərli Qumrinin bir şeirində dini mövzuda yazan aşağıdakı şairlərin adlarını çəkdiyini qeyd edir: *Müqbil, Mirfəttah, Məhzun, Ağabağır, Cövhəri, Dəxil, Xaki, Sərbaz və qeyriləri*[22]. Qumrinin verdiyi bu siyahıya bu mövzuda tədqiqat işi yazmış olan Firidun bəy Köçərlinin də qeyd etdiyi şairlərin adlarını əlavə etsək, yenə də XIX əsrdə dini mövzuda yazıb-yaradan şairlərin hamısı haqqında tam siyahı əldə etmərik. Amma hər halda onların böyuk bir qismi, aparıcı nümayəndələri barəsində müəyyən təsəvvür əldə etmiş olarıq. Beləliklə, XIX əsrdə dini mövzuda, məqtəl ədəbiyyatı mövzusunda daha çox yazıb-yaradan şairlər təqribən aşağıdakılardır: *Abdulla bəy Asi, Mirzə Ələsgər Növrəs, Ahi, Mirzə Həbib Qüdsi, Pürqəm, Dəxil, Dilsuz, Sərraf, Qumri, Ləli, Raci, Müqbil, Mirfəttah, Məhzun, Ağabağır, Cövhəri, Xaki, Sərbaz* və başqaları...

Maraqlıdır ki, XIX əsrdə Şimallı-Cənublu Azərbaycanda sırf dini mövzuda, yəni məqtəl mövzusunda daha çox yazıb-yaradan şairlər Azərbaycanın Dərbənd, Şuşa, Təbriz kimi şəhərlərində yaşayıb-yaradırdılar. XIX əsrdə Azərbaycanın qədim şəhərlərindən biri olan Dərbənddə Kərbəla şəhidlərinə əza tutmaq və bu mövzuda bədii əsərlər qələmə almaq xüsusi bir vüsət almışdır ki, Qumri də

---

[22] Köçərli, F. Azərbaycan ədəbiyyatı // [İki cilddə] F.Köçərli.- Tərt. ed. R.Qəmbərqızı. –Bakı: Elm.- c.2.- 1981.- s.319

həmin mühitdə yetişdiyi üçün bu prosesdən kənarda qala bilməmişdir. Firidun bəy Köçərli ümumiyyətlə Qumri yaradıcılığına böyük qiymət verib, eyni zamanda, öz əsərində bu prosesi də qeyd edir. Dərbənddə Qumridən başqa dini mövzuda-məqtəl mövzusunda yazıb-yaradan və Qumrinin müasirləri olan daha iki şair vardır ki, onlardan da biri Firidun bəy Köçərlinin qeyd etdiyinə görə Mirzə Kərim Şüai, digəri isə Mirzə Cəbrayıl Süpehridir. Bu iki qardaş da Qumri kimi şəbihgərdanlıqla məşğul olmuş, mərsiyə və nohələr yazmşlar.

XIX əsrdə Azərbaycanda fəaliyyət göstərən ədəbi dairələrdən Təbrizdə dini ədəbiyyat-məqtəl ədəbiyyatı daha sürətlə inkişaf edirdi. Çünki burada həmin dövrdə Raci, Pürqəm, Dəxil, Dilsuz və digər şairlər fəaliyyət göstərir, öz yaradıcılıqları ilə bu ədəbiyyata xüsusi rövnəq verirdilər. Ümumiyyətlə, Təbriz bütün tarix boyu həmişə öz ictimai-siyasi-elmi-ədəbi-dini fəaliyyəti ilə fərqlənmiş, Azərbaycanın inkişafında öz xüsusi mövqeyi ilə seçilmişdir. XIX əsrdə Təbriz ədəbi mühitində fəaliyyət göstərən şairlərin sırasında öz istedadına və əsərlərinin bədii dəyərinə görə ilk yerdə, təbii ki, Hacı Əbülhəsən Raci dururdu. Raci haqqında verilən məlumatlardan və onun divanı ilə tanış olduqdan sonra görünür ki, Raci təkcə Kərbəla faciəsi ilə bağlı yazdığı əsərlərlə məşhur olmamış, eyni zamanda, dövrünün gözəl, şirin, rəvan təbli lirik şeirlər, qəzəllər yazan şairi olmuşdur.

XIX əsrdə artıq Qarabağ, Şuşa da Azərbaycanın mədəniyyət mərkəzlərindən birinə çevrilmiş və bu şəhərdə elm, təhsil, musiqi sənəti, incəsənət, bütövlükdə cəmiyyət, onun bütün sahələri inkişaf etdiyi kimi, eyni zamanda, poeziya, şeir, ədəbiyyat da böyük bir vüsətlə inkişaf edirdi. Bu mənada, təbii ki, Qarabağ ictimai-siyasi-mədəni mühitində dinin, dini dünyagörüşün mühüm yeri olduğu kimi, ədəbi mühitdə də dini ədəbiyyatın özünəməxsus mövqeyi var idi. Bu baxımdan, Qarabağ, Şuşa dini-ədəbi mühitindən danışarkən Firidun bəy Köçərlinin bir fikrini yada salmaq istəyirik: "*Məlumdur ki, beş-on sənə bundan əqdəm artıq hörmət və şöhrətdə olan ancaq İmam Hüseyn müsibətinə dair növhə və mərsiyə yazan şairlər idi ki, onların kəlamı məscidlərdə, təkyələrdə oxunurdu və onlar öz kəlamlarını eşidib, xalqın tərifü tövsifi ilə sərəfraz olurdular və növhə yazmağa dəxi də artıq şövqmənd olub, bütün vaxtlarını və qüvveyi-*

*şeriyyələrini bu yolda sərf edirdilər. On beş-iyirmi sənə bundan əqdəm Şuşa qələdə əli qələm tutan kəmsavad uşaqlar dəxi növhə yazmağa məşğul olub, hər birisi öz düzdüyü şeirə oxşayan kəlamları ilə iftixar edirdilər*"[23]. Maraqlıdır ki, "Şuşa qələdə əli qələm tutan kəmsavad uşaqlar dəxi növhə yazmağa məşğul olub, hər birisi öz düzdüyü şeirə oxşayan kəlamları ilə iftixar edirdilər" deyən Firidun bəy Köçərli, "Azərbaycan ədəbiyyatı" əsərində mərsiyə, nohə yazan Qarabağ şairlərindən ancaq bir neçə şairin - Abdulla bəy Asinin, Mirzə Əliəsğər Növrəsin yaradıcılığına müraciət edir və Asinin dini məzmunlu əsərlərindən də yalnız bir nümunə verir. Bunun səbəbini isə, etiraf etdiyi kimi, Asinin bu qəbildən olan əsərlərini çox çətinliklə əldə etdiyini göstərir. Beləliklə, XIX əsr Azərbaycan ədəbiyyatına nəzər salıb, orada dini mövzuların işlənmə arealına baxdıqda, bir tərəfdə Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Mirzə Kazım bəy kimi maarifçi-demokratları, digər tərəfdə Seyid Əzim Şirvani, Seyid Əbülqasim Nəbati, Seyid Həmzə Nigari kimi irfan şairlərini, o biri tərəfdə isə Qumri, Raci, Dəxil, Dilsuz kimi növhəxan, mərsiyəxan şairləri görürük.

**II fəslin** ikinci yarımfəsli **"XIX əsr Azərbaycan ədəbiyyatında dini poeziyanın mövzu və məzmun xüsusiyyətləri"** adlanır. Göstərilir ki, XIX əsr Azərbaycan ədəbiyyatında məqtəl mövzusunda yazıb-yaradan şairlərin bu mövzuda yazdıqları əsərlərdə məzmun baxımından əsasən iki istiqamət özünü göstərir: 1. bu faciəni xronoloji ardıcıllıqla və 2. fraqmental şəkildə qələmə alanlar. Lakin bu hadisəni istər xronoloji ardıcıllıqla və istərsə də fraqmental şəkildə qələmə alan şairlərin hər iki qismi demək olar ki, bu hadisənin bütün əsas məqamlarını nəzmə çəkmiş, bu faciənin ən mühüm məqamlarını poeziyaya çevirmişlər. Məsələn, Raci yaradıcılığından danışarkən Hafiz Abıyev yazır: "*Raci, Dəxil və Qumri kimi Kərbəla faciəsini ardıcıllıqla təsvir etməmişdir. O, əhvalatın ən qabarıq hissəsini seçmiş və onları yanıqlı bir dillə nəzmə çəkmişdir*"[24].

---

[23] Köçərli, F. Azərbaycan ədəbiyyatı // [İki cilddə] F.Köçərli.- Tərt. ed. R.Qəmbərqızı. –Bakı: Elm.- c.2.- 1981.- s.326

[24] Abıyev, H. Ön söz / H.Abıyev, Hacı Əbülhəsən Raci, Seçilmiş əsərləri,- Bakı: Sabah,- 1992.- s.12.

Ümumiyyətlə, bəziləri islam tarixində həm tarixi, həm də mənəvi hadisə kimi şərəfli bir yer tutan Kərbəla faciəsinin mahiyyətindən, məğzindən danışarkən bu hadisələri və bu hadisələrlə bağlı müəyyən mərasimləri bəzən fanatizmlə və islam tarixində sünnü-şiə təfriqəçiliyi salmaq kimi məsələlərlə əlaqələndirib, bu hadisəyə kölgə salmaq istəsələr də, əslində bu faciə və bu faciənin doğurduğu mənəvi keyfiyyətlər haqqında tədqiqatçıların, din xadimlərinin, alimlərin, şairlərin və bütövlükdə islamsevər insanların fikirləri yekdildir: bu hadisə mərdlik məktəbidir, əqidə, məslək uğrunda şəhidlik məktəbidir, sevgi məktəbidir, Allah yolunda əzizlərinin canından keçə bilmək məktəbidir və nəhayət Allah Taalaya olan eşqdir... Bu mənada, ümumiyyətlə bütövlükdə məqtəl ədəbiyyatının daxilində, xüsusilə də XIX əsr məqtəl mövzusunda yazılmış əsərlərin daxılidə bu ideya gizlənmişdir ki, bunu da tədqiqatçılarımız çox doğru olaraq duymuş və XIX əsr məqtəl mövzusunda yazmış şair və yazıçıların əsərlərindən danışarkən qeyd etmişlər. Məsələn, yenə də Raci yaradıcılığından danışarkən Hafiz Abıyev yazır: “*Qəzəllərində olduğu kimi, mərsiyələrində də Raci eşqi tərənnüm etmişdir. Fərq isə yalnız eşqin məzmunundadır. O, haqq-ədalət uğrunda özünü fəda edən Kərbəla şəhidlərinin şəhadətqabağı keçirdikləri hiss və həyəcanları o qədər təbii, inandırıcı şəkildə təsvir etmişdir ki, oxucu bu hadisələrə biganə qala bilmir”*[25]. Lakin bu hadisəni istər xronoloji ardıcıllıqla və istərsə də fraqmental şəkildə qələmə alan şairlərin hər iki qismi demək olar ki, bu hadisənin bütün əsas məqamlarını nəzmə çəkmiş, bu faciənin ən mühüm məqamlarını poeziyaya çevirmişlər. Bu mənada, hər iki qrup şair, demək olar ki, mərsiyə şairlərinin ən məşhurlarından olan Hacı Rza Sərrafın yaradıcılığında rast gəldiyimiz mövzulara toxunmuşlar[26]. Buna görə də, biz Sərrafın yaradıcılığında təsadüf etdiyimiz mövzuları sadalamaqla demək olar ki, bu və ya digər dərəcədə başqa şairlərin də, öz əsərlərində Kərbəla faciəsinin təqribən bu mühüm mövzularına toxunduqlarını qeyd etmək istəyirik: 1. Əmir əl-

[25] Yenə orada, s.13.
[26] Bax: Hüseynov T. XIX əsr Azərbaycan ədəbiyyatında məqtəl mövzusunda yazan şairlər/ Bakı Dövlət Universiteti, Dil və ədəbiyyat, 2019.- №4.-(112).- s.168-176.

Möminin Həzrət Əli (ə.)-nin mədh edilməsi barədə qəsidə. 2. Həzrət Əlinin (ə) mədh edilməsi barədə qəsidə. 3. Zəbani-hal barəsində olan qəsidə. 4. Fatimeyi-Suğranın (s) dili ilə Həzrət Əli Əkbərə (ə) deyilən nohə. 5.Fatimeyi-Suğranın (s) dilindən olan nohə. 6. Həzrəti-Zeynəb (s) dilindən deyilən nohə. 7. Fatimeyi-Suğranın (s) dilindən Həzrəti-Əli Əkbərə deyilən nohə. 8. Ali-əbanın Kərbəlaya daxil olması barədə nohə. 9. İmam Hüseynin (ə) dilindən Tasua barəsində nohə. 10. Əli Əkbərin (ə) dilindən anası ilə vidalaşması barəsində nohə. 11. Umm-Leyla xanımın dilindən Peyğəmbərə (s) oxşayan Əli Əkbərə (ə) xitabı barəsində nohə. 12. Umm-Leylanın dilindən Əli Əkbərin döyüş meydanına getməsi barədə nohə. 13. Cənabi-Səkinənin dilindən Cənabi-Əli Əkbər (ə) barəsində nohə. 14. Əli Əkbərin (ə) dilindən İmam Hüseyndən (ə) kömək istəməsi barədə nohə. 15. Peyğəmbər oxşarı Həzrət Əli Əkbərin (ə) şəhadəti barədə nohə. 16. İmam Hüseynin dilindən və o həzrətin (ə) döyüş meydanına getməsi barədə nöhə. 17. İmam Hüseynin (ə) dilindən Həzrəti- Əli Əkbərə (ə) xitab. 18. İmam Hüseynin (ə) dilindən Əli Əkbərin (ə) başı üstündə deyilən nohə. 19. Umm-Leylanın dilindən xeymədə Əli Əkbərin (ə) başı üstündə deyilən nohə. 20. Cənabi-Səkinə (s) xanımın dilindən xeymədə Həzrət Əli Əkbərin başı üstündə deyilən nohə. 21. Gəlin Fatimənin dilindən Cəbnab Qasım ibn Həsən (ə) barədə deyilən nohə. 22. Qasımın (ə) İmam Hüseyndən (ə) kömək istəməsi barədə nohə. 23. Qasımın (ə) anasının dilindən onun xeymədə başı üstündə dediyi nohə. 24. Həzrəti- Əbülfəzin (ə) İmam Hüseyndən (ə) kömək istəməsi barədə nohə. 25. İmam Hüseynin dilindən Həzrəti-Əbülfəzin başı üstündə dediyi nohə. 26. İmam Hüseynin (ə) dilindən şahzadə Əli Əsğərin şəhadəti barədə dediyi nohə. 27. Əli Əsğərin anası Rübabın dilindən nohə. 28. İmam Hüseynin (ə) dilindən şəhadət vaxtı Zeynəbə deyilən nohə. 29. İmam Hüseynin (ə) mübarək peykərinin Kərbəla torpağına düşməsi barədə nohə. 30. İmam Hüseynin (ə) Allaha ərz etdiyi sözlər barədə nohə. 31. Həzrəti-Zeynəbin (s) qətlgahda İmam Hüseynin (ə) başı üstünə gəlməsi barədə nohə. 32. Həzrəti-Zeynəbin (s) İmam Hüseynin (ə) başı üstdə onunla dərdləşməsi barədə nohə. 33. Ailənin bəlalı Kərbəladan köçməsi barədə nohə. 34. Həzrəti-Siddiqə Tahirənin (s) İmam Hüseynin (ə) mübarək başına xitab etməsi barədə nohə. 35.

Gəlin Səkinə Fatimə (s) barədə nohə. 36. Səkinənin Əli Əkbərin (ə) mübarək başına xitabı barədə nohə. 37. Gəlinin Şam yolunda cənab Qasımın (ə) mübarək başına xitabı barədə nohə. 38. Gəlin Fatimənin Şamda Qasımın mübarək başına xitabı barədə nohə. 39. Xərabədə Həzrəti-Zeynəbin (s) dilindən nohə. 40. Həzrəti-Zeynəbin (s) dilindən cənab Səkinəyə (s) xərabədə edilən xitab. 41. Əhli-beytin Kərbəlaya daxil olması zamanı cənab Ruqiyyənin (s) dilindən nohə. 42. Ərbəin barədə olan nohə. 43. Cənab Zeynəbin (s) Ərbəin barədə dilindən nohə. 44. Fatimeyi-Suğranın dilindən Mədinədə deyilən nohə və s. [27]

Racinin də mərsiyə və nohələrinə nəzər salsaq, onlarda da təqribən bu mövzuların işləndiyini, bu mövzulara toxunulduğunu görərik: məsələn, Həzrəti-Zeynəb (s) Şümrün qarşısında, Həzrəti-Zeynəb (s) Şam yolunda, Anasının Əli Əkbəri (ə) döyüşə yola salması, Əli Əkbərin (ə) döyüşməsi və şəhid olması, İmam Hüseynin (ə) bacısı Həzrəti-Zeynəblə (s) həsbi-halı, Xanım Səkinənin həsbi-halı və s. Təbii ki, bütün müsəlman dünyasının şiələri kimi XIX əsr Azərbaycan məqtəl şairləri də bu tarixi hadisələri mükəmməl şəkildə bilmiş və bu hadisələri böyük bir ustalıqla nəzmə çəkmişlər. məsələn, Racidə Hz. Əli Əkbərin anası tərəfindən döyüşə yola salınması zamanı ananın bilə-bilə ki, oğlu bu döyüşdən salamat qayımayacaq, yenə də onu mərdliklə, qürurla yola salması, döyüşə girməkdə bir an belə tərəddüd etməyə imkan verməməsi, hətta qardaşını da yanına almasını istəməsi və nəhayət ata ilə oğulun bu qərara gəldikdən sonra anaya söz qalmaması səhnələrinin təsviri olduqca təsirlidir:

*Ey oğul, batmıyasan qanuva, razi degüləm,*
*Verməsən can, qəsəm ol canuva, razi degüləm.*
*İndi ki, vermiş icazə sənə şahi-şühəda,*
*Olmusan rəzmgəhə getməgüvə sən də riza,*
*Yekdilü yekcəhət olmuş həm oğul, həm də ata,*
*Deyə bilməz ana: hicranuva razı degüləm.*

---

[27] Söz sərrafı// Hacı Rza Sərraf Təbrizinin vəfatının 100 illiyi münasibətilə Təbriz və Bakı şəhərlərində keçirilmiş elmi konfransların materialları.- Bakı: Beynəlxalq "Əl-Hüda" nəşriyyatının Bakı şöbəsi.- 2005.

*Özüvi sürət ilə qafiləyi-eşqə yetür,*
*Pərdeyi-cani girüb məclisi-canana götür,*
*Bilüsən bəsləmişəm mən səni bu gündən ötür,*
*Get, sükut etməgə bir anuva razi degüləm.*

*Çünki bu hisn ilə sən şibhi-peyəmbərsən, oğul,*
*Hamidən çox sənə maildir bu övladi-rəsul,*
*Olsalar mane əgər getməgüvə, etmə qəbul,*
*Yapışa kimsənə damanuva, razı degüləm…*

*…Onda kim, atəşi-hicrün şərəri canə düşər,*
*Zülm ilə gül bədənün ərseyi-meydanə düşər,*
*Qətlgəhdə şühəda hər biri bir yanə düşər,*
*Əsğəri almasan ol yanuva, razı degüləm…*

Sərraf isə anası Leylanın oğlu Əli Əkbəri döyüşə yola salmasını belə təsvir edir:

*Olmusan can verməyə amadə, xoş gəldin, oğul,*
*Get boyun qurbanı, ey şahzadə, xoş gəldin, oğul.*
*Yatmadım on səkkiz il, bir sən kimi can bəslədim,*
*Xuni-dil sərf eylədim, ləli-Bədəxşan bəslədim,*
*Mən səni, əlhəq, bu gündən ötrü qurban bəslədim,*
*Yaxşı vaxtında yetişdin dadə, xoş gəldin, oğul.*

*Zəhmətin çəkdim, yetirdim mən səni bu həddivə,*
*İndi var bir xahişim verrəm qəsəm öz cəddivə,*
*Bir qabağımda yeri, eylim tamaşa qəddivə,*
*Həsrətim ta qalmaya dünyadə, xoş gəldin oğul.*

*Bəs ki cami-eşq ilən sərməstü mədhuş olmusan,*
*Şahidi-bəzmi-məhəbbətlən həmağuş olmusan,*
*Durma, get çün zövqü şövqlən kəfənpuş olmusan,*
*Razıdır bu getməyə Leyla də xoş gəldin, oğul...*

*...Tut əlində nəqdi-can, bazari-eşqə qoy qədəm,*
*Canilən al hər tərəfdən gəlsə kalayi-sitəm,*
*Baxma, al hər qiymətə olsa mətai-dərdi-qəm,*
*Yox ziyanın bir belə sevdadə, xoş gəldin, oğul.*

Əlbəttə ki, digər şairlərdə bu hadisəyə başqa münasibət də görülür. Belə ki, əgər Raci və Sərraf kimi şairlərin yaradıcılığında Hz. Leylanın oğlu Hz. Əli Əkbəri döyüşə yola salmaq səhnəsi bir qədər döyüşkən ruhda, cəngavərlik əhvali-ruhiyyəsində təsvir olunursa, amma, məsələn, Dəxil və Fəna kimi şairlərin yaradıcılıqlarında bu hadisə daha həzin, daha kövrək, daha lirik şəkildə, övladını ölümə yola salan bir ananın iztirabları fonunda təqdim edilir[28].

Məqtəl şairlərinin yaradıcılıqlarında Hz. Əli Əkbərlə bağlı elə bir mövzu vardır ki, bu mövzu əgər belə demək mümkünsə, əksər məqtəl şairlərinin yaradıcılıqlarından bir qırmızı xətt kimi keçir. Bu mövzu isə demək olar ki, bütün şairlərin Hz. Əli Əkbərin şəninə ayrıca olaraq öz dillərindən növhə, sinəzən qələmə almalarıdır. Doğrudur, bu nöhələrdən bəziləri yuxarıdakı mövzulara aid olsalar da, hər halda Raci, Sərraf, Dəxil kimi məqtəl mövzusunda daha çox yazıb-yaradan şairlərə nisbətən bu mövzuda az yazan şairlərin məhz Hz. Əli Əkbərə növhə, sinəzən yazmaları diqqəti xüsusi olaraq cəlb edir. Məsələn, hələ XIX əsrin əvvəllərində Abbasqulu ağa Bakıxanov Qüdsi yazırdı:

*Kərbəla, saxlagilən nəşi-Əli Əkbərimi,*
*Verirəm çünki əmanət sənə gülpeykərimi.*
*Yoxdu çün Leyliyi-biçarəyə qəmxari-dəlil,*
*Atəşin ah ilə göz yaşım olur xakə səbil,*
*Çarəm olsaydı əgər qoymaz idim xarü zəlil,*
*Sayəban eylər idim nəşə qəra məcərimi...*

---

[28] Bax: Hüseynov T. Kərbəla faciəsinin qəhrəman qadınları XIX əsr Azərbaycan məqtəl ədəbiyyatında/ Axtarışlar. AMEA Naxçıvan bölməsinin incəsənət, dil və ədəbiyyat institutu.- 2022.- №2.- (42), c.16.-s.24-29.

*Xurşudbanu Natavan yazır:*
*Söylə Hüseynə ey səba Kərbübəlayə gəlməsin,*
*Gəlsə, düşər bu dəştidə dərdü bəlayə, gəlməsin.*
*Söyləginən gətirməsün Kufəyə nazlı Əkbəri,*
*Zülm ilə qanına batar türreyi-müşki-ənbəri,*
*Bəlkə Firəngətək apar cümleyi-ali-Heydəri,*
*Zibhi-əzim üçün bu gün kuhi-Minayə gəlməsin.*

Mirzə Ələkbər Sabir yazır:
*Baxdı çün Əkbərinin nizədə Leyla üzünə,*
*Gördü zülfü tökülüb çün şəbi-yelda üzünə.*
*Gəldi şurə dedi: ey şəmi-şəbistanım oğul,*
*Yetmədin kami-muradə məhi-tabanım oğul,*
*Həşrətək dildə qalıb çıxmadı bu canım oğul,*
*Gəlməyəydi anan ey kaş bu dünya üzünə.*

Dissertasiyanın **III fəsli "XIX əsr Azərbaycan ədəbiyyatında dini poeziyanın sənətkarlıq xüsusiyyətləri"** adlanır və iki yarımfəsildən ibarətdir. "**XIX əsr Azərbaycan ədəbiyyatında dini poeziyada dini xüsusiyyətlər poetik ifadə vasitəsi kimi"** adlanan birinci yarımfəfilə göstərilir ki, Şərq poeziyasının poetik xüsusiyyətlərindən biri, onun obrazlar sistemində dini istilahların, məfhumların bədii obraz səviyyəsinə qədər yüksələ bilməsidir. Maraqlıdır ki, bu poeziyada öz rəngarəngliyi, müxtəlifliyi ilə seçilən dini məfhumlar, məqtəl ədəbiyyatında yazıb-yaradan şairlərin yaradıcılıqlarından daha çox, eyni zamanda, məsələn, Seyid Əzim kimi maarifçi- qəzəlxanların yaradıcılıqlarında meydana çıxmışdır. Ümumiyyətlə, belə dini obrazlar sırasında *Kəbə, Məkkə, Cənnət kimi yer-məkan adları, Yusif, Yəqub, Məsih, Məryəm, Xızır* kimi şəxs adları və s. olduqca mühüm yer tutur. Məsələn, Seyid Əzimin yaradıcılığında oxuyuruq:

*Bu qədər kim görünür arizi-dilbərdə səfa,*
*Yoxdu yüzdən biri ol Kəbeyi-davərdə səfa.*

Yaxud

*Rüxi-yar üzrə düşən zülfi-siyəhdir, ya kim,*
*Pəri-Cibrili-əmin səhfeyi-Quranı tutub.*

Doğrudur, XIX əsr Azərbaycan poeziya nümayəndələri sırasında bu istilahlara, bir daha qeyd etdiyimiz kimi, daha çox Seyid Əzimin, Nəbatinin yaradıcılıqlarında rast gəlsək də, amma hər halda digər şairlərin- XIX əsr Azərbaycan poeziya nümayəndləri sırasında bir o qədər də böyük yer tutmayan, lakin nə olursa olsun, bu ədəbiyyatın yaranmasında iştirak edən digər şairlərin yaradıcılıqlarında da rast gəlirik. Məsələn, XIX əsrin ikinci yarısında yaşayıb-yaratmış Mirzə Ələkbər Səburinin (1866- ?) yaradıcılığında oxuyuruq:

*Ey səba hüdhüdi, bu ərzimi cananə yetir,*
*Qisseyi-muri gedib bəzmi-Süleymanə yetir.*
*Macərayi-dili-divanəmi cananə sölə,*
*Xəbəri-Adəmi-sərgəştəni Rizvanə yetir.*
*Məni-Fərhadı xəbərdar elə Şirinimdən,*
*Xəbəri-Yusifi-qomgəştəni Kənanə yetir.*
*Eləmə bir də Səburini müqəyyəd qeyrə,*
*Şərh qıl dərdi-dilin, şahi-Xorasanə yetir.*

**III fəslinin** ikinci yarımfəsli **“XIX əsr Azərbaycan ədəbiyyatında dini poeziyanın bədii-təsvir və ifadə vasitələri”** adlanır. Göstərilir ki, XIX əsr ədəbiyyatında ayrıca bir qol kimi fəaliyyət göstərən məqtəl ədəbiyyatının, Kərbəla ədəbiyyatının özü hansı poetik xüsusiyyətlərə malikdir? Sözsüz ki, ilk baxışda bu ədəbiyyatın poetik xüsusiyyətləri ümumiyyətlə, bu əsrdə qələmə alınmış yuxarıda bəhs etdiyimiz dini ədəbiyyatın digər qollarının poetik xüsusiyyətlərindən bir o qədər də fərqlənmir. Yəni başqa sözlə desək, əksəri nəzm şəklində qələmə alınmış bu əsərlərin də vəzn, qafiyə və poetik fiqurlardan istifadə dərəcələri təqribən eynidir və bu məsələlərindən də bəhs etmək olar və biz də edəcəyik. Lakin bütün bunlarla yanaşı, bizcə, məqtəl ədəbiyyatında, Kərbəla ədəbiyyatında əslində ilk növbədə bir məsələnin araşdırılmasına, öyrənilməsinə daha böyük ehtiyac vardır: belə ki, bütövlükdə Kərbəla faciəsini kəmiyyət və keyfiyyət baxımından böyük bir ədəbi hadisəyə çevirən

məqtəl ədəbiyyatında Kərbəla obrazının özü öz əksini necə və nə şəkildə tapmışdır?

Quru, susuz, yaşayış üçün əlverişsiz olan Kərbəla sonra bu torpaqda baş verən faciə nəticəsində nəinki təkcə müsəlman aləmində və ancaq şiələr arasında, bütün dünyada, bütün dünyada müsəlmanlar və hətta qeyri-müsəlmanlar arasında da tanındı. Və təbii ki, şairlər də bu həssas nöqtəni duyaraq, məqtəl ədəbiyyatında Kərbəlanin özünü bir obraza çevirib bu faciənin daha məşhur olmasında ondan da istifadə etdilər. Və nəticədə Kərbəla nəinki təkcə Kərbəla torpağının, faciəsinin, eyni zamanda, dünyada baş verən, bütün məkanlarda törənən faciələrin simvoluna çevrildi. Və heç də təsadüfi deyildir ki, Raci yazırdı:

*Dəf olur, şiə, Hüseynün matəmində hər bəla,*
*Ağla, hər gün ruzi-aşuradu, hər yer Kərbəla...*

Beləliklə, bütün bu deyilənləri nəzərə alsaq, dissertasiya işinin **nəticələri** kimi aşağıdakıları qeyd etmək olar:

1. XIX əsr Azərbaycan cəmiyyəti öz dini, mənəvi, elmi, ədəbi keyfiyyətlərinə görə digər əsrlərdən seçilən bir cəmiyyətdir.

2. XIX əsr Azərbaycan mühiti bir tərəfdən Şərqlə hələ əlaqələrini kəsməyən, digər tərəfdən isə Avropa mühitinə can atan bir mühitdir.

3. XIX əsr Azərbaycan mühiti nə qədər Şərqlə bağlı olsa da artıq Avropa mühitinin üstünlüyü daha çox hiss olunur.

4. XIX əsr Azərbaycan ədəbi mühiti olduqca coşğun ədəbi bir mühitdir; belə ki, istər şifahi xalq ədəbiyyatı janrları, istər klassik şeir və istərsə də satirik ədəbiyyat, eyni zamanda, maarifçi mətbuat böyük bir vüsətlə inkişaf edir.

5. XIX əsr Azərbaycan ədəbiyyatı eyni zamanda, ziddiyyətlərlə dolu bir ədəbiyyatdır. Çünki, Abasqulu Ağa Bakıxanov, Seyid Əzim Şirvani və başqaları kimi ədiblər əgər bir tərəfdən elmi, əxlaqi-didaktik maarifçi əsərlər qələmə alırlarsa, digər tərəfdən sırf dini əsərlər də qələmə alırlar.

6. XIX əsr maarifçi demokratların dinə münasibəti də birmənalı deyildir. Məsələn, onlar da Mirzə Fətəli Axundov kimi

əgər bir tərəfdən “dini puç və əfsanə” hesab edirlərsə, digər tərəfdən hər halda bu din haqqında müxtəlif əsərlər, traktatlar yazırlar.

7. XIX əsr Azərbaycan ədəbiyyatı eyni zamanda, məqtəl ədəbiyyatının yüksək inkişafı ilə seçilir ki, biz nə XIX əsrdən əvvəl, nə də sonra Azərbaycan ədəbiyyatındakı bu inkişafı görə bilmirik.

8. XIX əsr Azərbaycan məqtəl ədəbiyyatı Azərbaycan ədəbiyyatı tarixində əslində elə bir qoldur ki, bu qolu öyrənmədən bütövlükdə XIX əsr Azərbaycan ədəbiyyatını başa düşmək və ona qiymət vermək olmaz.

9. XIX əsr Azərbaycan məqtəl ədəbiyyatının Sərraf, Dəxil, Raci, Qumri kimi yaradıcıları öz yaradıcılıqlarının məzmun və poetik xüsusiyyətlərinə görə həqiqətən də görkəmli nümayəndələridirlər.

10. XIX əsr Azərbaycan ədəbiyyatının məqtəl ədəbiyyatının öyrənilməsi, eyni zamanda, Firudin bəy Köçərli kimi ədəbiyyatşünasların, ədəbiyyat tənqidçilərinin də bu prosesə münasibətlərini ortaya qoymuş olur.

Beləliklə, bütün bu deyilənlərdən sonra, həqiqətən də, XIX əsr Azərbaycan ədəbiyyatında dini motivlərin öyrənilməsi, araşdırılmasının vacibliyi bir daha özünü göstərir ki, biz də dissertasiyada bu suallara cavab verməyə çalışdıq.

**Dissertasiyanın əsas nəticələri müəllifin aşağıdakı məqalələrində əks olunmuşdur:**

1. XIX əsrdə Azərbaycanda ictimai-siyasi və ədəbi-dini mühit/ Axtarışlar. AMEA Naxçıvan bölməsinin incəsənət, dil və ədəbiyyat institutu. 2019.- №2.-c.10. s.54-61.

2. XIX əsr Azərbaycan ədəbiyyatında məqtəl mövzusunda yazan şairlər/ Bakı Dövlət Universiteti, Dil və ədəbiyyat, 2019.- №4.-(112).- s.168-176.

3. XIX əsr maarifçi demokratların həyat və yaradıcılıqlarında din/ Bakı Qızlar Universiteti.- Elmi əsərlər, 2020.- №1 (41).- c.11.- s.53-59.

4. Dini mövzuda yaranan XIX əsr Azərbaycan ədəbiyyatı/ Bakı Dövlət Universiteti.- Dil və ədəbiyyat.- 2022.- №2 (119).- s.439-442.

5. XIX əsr Azərbaycan məqtəl ədəbiyyatında İmam Hüseyn (ə) obrazı/ Bakı Avrasiya Universiteti.- “Müstəqil Azərbaycan: gerçəklik işığında” Respublika konfransının materialları.- 25-26 may, 2022.- s.150-167.

6. Kərbəla faciəsinin qəhrəman qadınları XIX əsr Azərbaycan məqtəl ədəbiyyatında/ Axtarışlar. AMEA Naxçıvan bölməsinin incəsənət, dil və ədəbiyyat institutu.- 2022.- №2.- (42), c.16.-s.24-29.

7. XIX əsr Azərbaycan ədəbiyyatı kontekstində din və cəmiyyət/ The XXIX İntenational Scientific Symposium “Turks and the World Problems of Mutual Relations? Dedicated to the 220th anniversary of Mirza Kazembek.- The 30th of August 2022, Kars.Turkey.- 2022.- s.38-42.

8. Poetiçeskiye osobennosti poezii na reliqioznuyu temu v Azerbaydjanskoy literature XIX veka/ Colloquium-journal Warszawa, Polska.- 2022.- №31 (154).- s.64-67.

9. XIX əsr məqtəl ədəbiyyatının vəzn sistemi/ The XXXI International Scientific Symposium Turkic World and National Unity The 29th of October 2022 Andijan.- Uzbekistan.- 2022.- s.63-69.



Dissertasiyanın müdafiəsi “10” Sentyabr 2025-ci il tarixində saat $12^{00}$-da AMEA Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 - Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi, 31, AMEA Folklor İnstitutu

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının (aak.gov.az) və AMEA Folklor İnstitutunun (folklor.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “07” iyul 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 02.07.2025
Kağızın formatı: 60x84, $^{1}/_{16}$
Həcm: 44 834
Tiraj: 100